**Aytən Əliyeva**
**dissertant**
**Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu**
**E-mail:** dissertant1@gmail.com

# 1950-2015-ci illərdə Mir Cəlal yaradıcılığında olan kitablar haqqında

**Xülasə:** Məqalədə görkəmli Azərbaycan yazıçısı Mir Cəlal Paşayevin 1950-2015-ci illərdə nəşr olunan hekayələrindən bəhs olunur. Azərbaycan ədəbiyyatında kiçik hekayə janrının inkişafında böyük xidmətlərindən söhbət açılır. Bədii nəsrin ən parlaq, ən aparıcı, lakonik, yığcam süjetli, bütöv və bitkin kompozisiyalı hekayələrinin nəşr variantları təsvir olunur. Mir Cəlal hekayələri məna və mahiyyətinə görə qruplaşdırılır. Hekayələr bölünür: əxlaqi hekayələr, satirik hekayələr, vətənpərvərlik ruhlu hekayələr, qadın problemlərini özündə ehtiva edən hekayələr. Ədibin hekayələrində həyat rəngarəng və müxtəlif cəhətlərdən təsvir olunur. Mir Cəlal hekayələri dövrün zamanın tələbinə uyğun həyatdakı eybəcərliyi açıb göstərir. Ədib hekayələrində həyatın dərin qatlarına enərək hadisələrin daxili mahiyyətini açıb göstərir. Hekayələrində əmin-amanlıq, humanizm, yer üzündə insanların dinc, məsud yaşaması ideyası təbliğ olunur. Ədibin hekayələri istər sovet dövründə, istərsə də müstəqillik illərində aktuallığını qoruyub saxlamışdır.

**Açar sözlər:** Mir Cəlal, hekayələr, nəşr variantları

Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, sənətinin inkişaf edərək yeni nailiyyətlər qazanmasında özünəməxsus mövqeyi və xidməti olan yazıçılardan biri də Mir Cəlal Paşayevdir.

Kiçik janrın böyük ustadı adını qazanan Mir Cəlal Paşayevin bir-birindən maraqlı hekayələrinin nəşri davam olunmaqdadır. İstər sovet dövründə, istərsə də müstəqillik dövründə eyni templə nəşrlərinin çapı ədibin zəngin yaradıcılığının hər zaman üçün müasirliyindən və aktuallığından xəbər verir.

"Aktuallıq" o vaxt müasirlik keyfiyyəti kəsb edə bilir ki, qaldırılan problemin arxasındakı tarixi şərtlər, xarakterləri müəyyənləşdirən ictimai və psixoloji amillər bədii təhlilin obyektinə çevrilsin, hər bir fakt və ya detal obrazlı şəkildə "əsaslandırılsın", yalnız ayrı-ayrı personajların deyil, bütövlükdə mühitin və ya vəziyyətin bütün rəngləri, çalarları ilə canlı bədii mənzərəsi yaradılsın. Bu baxımdan Mir Cəlal yaradıcılığında aktuallıq ictimai gerçəkliklərə, cəmiyyətdə gedən proseslərə qarşı "mövsümi" xarakter daşıyan

bir reaksiya deyil. Məhz buna görə də Mir Cəlalın hekayələrində qoyulan problemlər öz aktuallığını bugün də saxlayır.[19,122]

Mir Cəlalın 1951-ci ildə "Söyüd kölgəsi" adlı hekayə kitabı Bakıda Uşaqgəncnəşr nəşriyyatında çap olunub. [3] 20 səhifədən ibarət olan kitabın redaktoru H.Xalidədir.Yaşıl rəngli olan kitabın üstündə söyüd ağacının rəsmi təsvir olunub və rəssamı A.Mehdiyevdir. Kiril əlifbası ilə nəşr olunan kitab 16x21 sm. ölçüsündə , 104 ədəd sifarişli və 10.000 nüsxə tirajlıdır.

1955-ci ildə "Sadə hekayələr" adlı hekayələr kitabı Bakıda Azərnəşr nəşriyyatında 238 səhifə həcmində nəşr olunub. [4] Açıq xına rəngli kitab14x20 sm. ölçüsündə, 554 ədəd sifarişlə, 10.000 nüsxə tirajla və Ş.Abasovun redaktorluğu ilə nəşr olunub. Kitab illüstrasiyalı deyil, ancaq cildin rəssamı V. Xruslovdur. Kitabda 25 hekayə dərc olunub. Bu hekayələrdən dördünün nəşri təkrar, qalan iyirmi bir hekayənin isə yeni nəşr variantlarıdır. Yeni nəşr olunan hekayələrdən bəzilərinin adını qeyd edək. Məs: "Baldan əvvəl", "Mərdimazar", "Balacalara hədiyyə","Ulduz", "Özgə uşağı", "Gənc usta", Çin Qızı","Gərək olar", "Əsgər oğlu", "Gilasın sevinci" və s. hekayələri nəşr olunub.

C. Məmmədquluzadə və Ə. Haqverdiyev hekayə ənənələrinin ən layiqli davamçısı kimi, Mir Cəlal bu çevik janrı öz sənətkar cəsarəti ilə gücləndirdi, onun poetik-srtuktur imkanlarını daha da artırdı.

Onun hekayələrində, təxminən, belə bir qruplaşma aparmaq olar:

1. Satirik hekayələr ("Mirzə", "Həkim Cinayətov", "Kağızlar aləmi", "Təzə toyun nəzakət qaydaları", "Anket Anketov" və s. )
2. Əxlaqi tərbiyəli xarakterli hekayələr ("Ulduz", "Plovdan sonra", "Elçilər qayıtdı", " Naxış", "İstifadə" və s. )
3. Vətənpərvərlik ruhlu hekayələr ("Yollar", "Anaların üsyanı", "Qardaş qanı", "Atlı", "Vətən yaraları", "Şərbət", "Havalı adam", "Badam ağacları " və s.)
4. Qadın problemini özündə ehtiva edən ailə-məişət hekayələri ("Sara", "Dəzgah qızı", "Gözün aydın", "Nanənin hünəri", "Badamın ləzzəti" və s.) [2, 223]

1956-cı ildə "Yuxu və külək" adlı hekayələr kitabı Uşaqgəncnəşr nəşriyyatında çap olunub. [5] Gülşən Həsənzadənin redaktorluğu ilə çap olunan kitab kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur. Nazik cildli, açıq yaşıl rəngli kitabın üz qabığında küləkdən və pişikdən öz kökəsini qorumağa çalışan uşaq rəsmi təsvir olunub. Kitabın üz qabığının rəssamı H.Haqverdiyev, kitabın içərisində olan şəkillərin rəssamı isə H.A.Ağayevdir. 20,5x25,5 ölçüsündə olan kitabın sifarişi 30 ədəd, tirajı isə 1000 nüsxədir. 11 səhifədən ibarət olan kitabın əlifbası latın və rus hərflərinin qarışığı ilə yazılmışdır. Kitabda nəşr olunan

"Qələm", "Yuxu və külək", "Buz maşını" hekayələrinin üçünün də ilk nəşr variantlarıdır.

1961-ci ildə "İnsanlıq fəlsəfəsi" adlı kitab Bakıda Azərnəşr nəşriyyatında dərc olunub. 406 səhifəlik kitab Ş.Abasovun redaktəsi ilə çapdan çıxmışdır. Göy rəngli qalın karton cildli kitabın sifarişi 346 ədəd, tirajı isə 15.000 nüsxədir. Kitabın üz qabığının rəssamı M.Bağırovdur. Kiril əlifbası ilə nəşr olunan kitab 14x21 sm. ölçüsündədir .Kitaba daxil olan 56 hekayə altı hissəyə ayrılıb. Bunlar aşağıdakılardır:

1. Həyat hekayələri
2. Od içindən çıxanlar
3. Güldürən hekayələr
4. Xatirə dəftərindən
5. Həkim hekayələri
6. Kiçik hekayələr

Birinci hissədə həyat hekayələrinin içərisində 15 hekayə nəşr edilib. 15 hekayədən altısı təkrar nəşr, doqquzu isə yeni nəşrlərdir. Yeni hekayələrdən "Əməli saleh", "Əskinasın tarixi", "Qocaların uşaq söhbəti", "Tövbələtmə" və s. misal göstərmək olar. İkinci hissədə cəmi 7 hekayə nəşr olunub. Bunlardan iki hekayənin təkrar nəşri, qalan beş hekayənin isə yeni nəşrləridir. Yeni hekayələrdən "Döyüşçülərin dediklərindən", "Mənim də haqqım da var", "İki ananın bir oğlu" və s. misal göstərmək olar. Üçüncü hissədə isə 11 hekayədən doqquzunun növbəti nəşri, üçünün isə yeni nəşrləridir. "Təsadüf", "İtpərəstlərin həyəcanı", "O dünyada" yeni hekayələrdəndir. Dördüncü hissədə 9 hekayədən ikisinin növbəti nəşri, yeddisinin ilk nəşrləridir. Yeni hekayələrdən "Təsadüf ya zərurət", "Neçə cür salam var?", "Vicdan mühakiməsi", "Nazik mətləb" və s. Beşinci hissədə olan 4 hekayədən ikisinin növbəti nəşri, ikisinin isə yeni nəşrləridir. "Vicdan əzabı", "Dost görüşü" yeni hekayələrdəndir. Altıncı hissədə isə 11 hekayədən yalnız birinin növbəti nəşridir, qalan doqquz hekayənin isə ilk nəşridir. "Sancaq fabrikində", "Kəhərin son günü", "Zəhmət, Əql, Bəxt", "Mən də bakılıyam" yeni hekayələrdəndir.

Bu kitabda ədibin seçilmiş hekayələri toplanmışdır. Müasir sovet adamlarının alovlu vətənpərvərlik hisslərindən, həyat və məişətindən, əmək cəbhəsindəki rəşadətindən, yeni ailə quruluşundan, gənclərimizin tərbiyə və inkişafından, əxlaqi keyfiyyətlərindən Vətən müharibəsi cəbhələrində igidliklə döyüşmüş olan əsgər və zabitlərimizin xatirələrindən lövhələr və bədii nümunələr verilmişdir. Eyni zamanda cəmiyyətimizin içərisində hələ də yaşayıb son nəfəsini dərməkdə olan mənfi tiplər, köhnə adət və ənənələr qızğın satira atəşinə tutulmuşdu. [6,2]

1962-ci ildə “Xatirə hekayələri” kitabı Bakıda Azərnəşr nəşriyyatında 406 səhifə həcmində çap olunub. Rəna Şıxəmirovanın redaktorluğu ilə çap olunan kitab13x21 sm. ölçüsündədir. Kitab illüstrasiyalıdır və kitabın rəssamı H. Zeynalovdur. 352 ədəd sifarişli, 10.000 nüsxə tirajlıdır. Kiril əlifbası ilə yazılan kitab karton cildli, göy rənglidir. Kitabın ön sözünü “Müqəddimə” adlı başlığı ilə Bəkir Nəbiyev yazmışdır. Kitabın içərisində olan 24 hekayədən “Gülbəsləyən qız”, “Mənim vəfalı maşınım”, “Mənim səmimi dostum”, “Gənc şairin ərizəsi”və s. yeni hekayələrdəndir.

Bu kitabda müəllifin son iki ildə müasir həyatdan yazdığı hekayələr toplanmışdır. Mövzu etibarilə bu əsərlər sovet gənclərinin, məktəblilərinin həyatından əməkdə və təhsildəki nailiyyətlərindən, yeni ailə və məişətdən, sovet məfkurəsinin ümumbəşəri əhəmiyyətindən, xalqlar dostluğundan bəhs edir. Məzmun etibarilə hekayələrin əsas xüsusiyyəti adamlarımızın yüksək əxlaqi məziyyətini təsvir və tərənnüm etməsi, yeni kommunizm cəmiyyətinə xas olan keyfiyyətlərin təbliğ edilməsidir. Hekayələr ədibin özünəməxsus optimist ruhda, yığcam formada, sadə bədii dildə, xoş və mülayim yumor ilə yazılmışdır. [7]

1965-ci ildə “Gülbəsləyən qız” hekayələr kitabı Bakıda Azərnəşr nəşriyyatında 334 səhifə həcmində çap olunub. [8] Açıq yaşıl rəngli, karton cildli kitab 13x21 sm. ölçüsündədir və kitabın rəssamı H. Zeynalovdur. Kiril əlifbası ilə yazılan kitab 41 ədəd sifarişlə, 10.000 nüsxə tirajla çap olunub. Z.Qiyasbəylinin redaktorluğu ilə çapdan çıxan kitabın ilk səhifəsində “Balalarımızın estetik tərbiyəsi ilə məşğul olan müəllim qızım Elmiraya ithaf!” yazılıb.

Bu kitabda nəşr olunan 61 hekayədən “Müsəlmanlıq və texniki tərəqqi”, “Turşuqeyrət”, “İngilis dili”, “Öyrəncəkli” və s. yeni hekayələrdəndir.

Xalq şairi Nəriman Həsənzadə “Gülbəsləyən qız” adlı məqaləsində yazıçının son illərdə yazdığı hekayələrinə belə münasibət bildirmişdir: Ədibin son illərdə bir-birinin ardınca bir neçə hekayə kitabı nəşr olunmuşdur. “Gülbəsləyən qız” hələlik bunların sonuncusudur. Bu kitabı müxtəlif insan təbiətləri sərgisinə bənzətmək olar. Şofer, su satan, çoban, müəllim, dərzi , xidmətçi, zavod müdiri, heykəltaraş, tərcüməçi, quşbaz, ovçu, televizor ustası, yetim uşaq və s. Müəllif gah özü onlar haqqında danışır, gah da onların özlərini dindirir. Öz dillərində, bəzən öz janrlarında dindirir. [1,3]

1965-ci ildə “Söyüd kölgəsində”adlı hekayələr kitabı Bakıda Maarif nəşriyyatında 42 səhifə həcmində nəşr olunub. İ.Hümmətovun redaktorluğu ilə nəşr olunan kitab 137 ədəd sifarişlə, 5.000 nüsxə tirajla çap olunub. İllüstrasiyalı olan kitabın rəssamı D. Kazımovdur. Kitabın üz qabığı nazik cildli və 14x20 sm. ölçüsündədir. Kiril əlifbası ilə yazılmışdır. Kitabda “Ərik ağacı” (hekayənin proloq hissəsində “İlk nəvəm Aytəkinə” yazılıb), “Gülbəsləyən

qız", "Söyüd kölgəsi", Plovdan sonra", "Zəhmət, Əql, Bəxt" hekayələri nəşr olunub. Sevimli yazıçımız Mir Cəlalın "Mənim ilk kitablarım" seriyasından nəşr edilən bu kitabça məktəb kitabxanasından ilk dəfə istifadə etmək istəyən kiçik və orta yaşlı məktəblilər üçün nəzərdə tutulmuşdur. Həmin kitabçada yazıçı Mir Cəlalın bir neçə kiçik hekayəsi toplanmışdır. Bu hekayələrdə dostluqdan, əməkdən və insanların bir-birinə olan qayğısından bəhs olunur. [9]

1972-ci ildə "Şəfəqdən qalxanlar" adlı hekayələr kitabı Bakıda Gənclik nəşriyyatında 272 səhifə həcmində nəşr olunub. S.Məmmədovanın redaktorluğu ilə nəşr olunan kitabın rəssamı Ye Qavrilindir. Qəhvəyi rəngli qalın karton cildli kitabın sifarişi 555 ədəd, tirajı isə 15.000 nüsxədir. 13,5x20,5 sm. ölçüsünə olan kitab kiril əlifbası ilə yazılıb.

Kitabda "Mühazirəçi yoldaşım", "Sədaqət sarayları", "Nəfsi tox"," Fərəh məclisi" və s. hekayələr nəşr olunub.

Mir Cəlalın bu kitaba daxil edilmiş "Dağlar dilləndi" povesti gənc müəllim Əntiqənin Sovet hakimiyyətinin ilk illərində kənddə maarif və mədəniyyət uğrundakı fədakar mübarizəsindən bəhs edir. Kitabdakı hekayələrdə yazıçı bugünkü gəncliyi düşündürən bir sıra problematik məsələləri əhatə etmişdir. [10]

1974-cü ildə "Silah qardaşları" adlı hekayələr kitabı qırmızı rəngdə üstündə vertolyot şəkilli, 293 səhifə həcmində 13x21 sm. ölçüsündədir. R.Salamovanın redaktorluğu ilə çapdan çıxan kitabın sifarişi 1211 ədəd, tirajı isə 18.000 nüsxədir. Qalın karton cildli kitabın üz cildinin rəssamı F.Ağayevdir. Kiril əlifbası ilə nəşr olunan kitabda "Yalan ayaq tutar yeriməz", "Oxutmuram əl çəkin!", "Niyə ovdan əl çəkdim", "Varislər" və sair hekayələr nəşr olunub.

Görkəmli nasir Mir Cəlal Paşayevin əsərləri çoxdan oxucuların rəğbətini qazanmışdır. Onun roman, povest və hekayələri ədəbiyyat xəzinəmizin gözəl incilərindəndir.

"Silah qardaşları" adlı bu kitabda dərc olunmuş hekayələr də mətbuat səhifələrindən oxucularımıza tanışdır.

Ədibin hekayələrində müsbət adamlar xüsusən sovet məktəbinin tərbiyə edib yetirdiyi yeni insanlar üstünlük təşkil edir. Ailədə, kollektivdə, ictimai həyatda bu adamların qabaqcıl işi və rolu görünür.

Mir Cəlal hekayələrində sosialist-realizminin tələblərinə, sənətkarlığa zəngin dil xüsusiyyətlərinə xüsusi diqqət yetirir. Klassik irsimizin bir sıra gözəl ənənələri bu hekayələrdə öz ifadəsini tapmışdır. [11]

1978-ci ildə "Dağlar dilə gəldi" (hekayələr və povest) kitabı Bakıda Gənclik nəşriyyatında nəşr olunub. 176 səhifə həcmində olan kitabın redaktoru Sona Məmmədova, rəssamı isə M.Quliyevdir. Ağ rəngli nazik üz qabıqlı kitabın cildində təbiət rəsmi təsvir olunmuşdur. 397-497 ədəd sifarişli (hər iki rəqəmlər yazılıb) kitabın tiraj sayı 10.000 nüsxədir. 13x16 sm. ölçüsündə olan

kitab kiril əlifbası ilə yazılıb. Kitabda "Səksən illiyə çağırmışdılar", "Yalandan beş", "Qəm qəmi gətirər, dəm dəmi" və s. hekayələr və "Dağlar dilə gəldi" povesti nəşr edilmişdir.

Bu kitabda ədibin, əsasən son illərdə (1970-1976) yazdığı, mətbuatda nəşr etdirdiyi bir çox realist hekayələri toplanmışdır. Mövzusu müasir həyatdan alınan bu əsərlərdə sovet gənclərinin ictimai fəallığından- əmək rəşadətindən, təhsilindən, yüksək əxlaqi keyfiyyətlərindən, dostluq, qardaşlıq münasibətlərindən bəhs olunur. Sovet ailəsi, məişəti, ictimai-əxlaqi tərbiyənin bir sıra mühüm cəhətləri, ayrı-ayrı hekayələrdə sevən, sevilən cavanların fəaliyyəti də əks olunur. Əsərlər həcmcə yığcam olsa da, bədii keyfiyyət, dil, stil xüsusiyyətləri ilə ədibin yaradıcılıq simasına müvafiq nümunələr kimi seçilmiş tərtib olunmuşdur. Sadəlik, səmimilik, təbii, inandırıcı bədii lövhələr bir sıra hekayələrdə qabarıq nəzərə çarpır. Bu kitab ədibin son dövrdə çap etdirdiyi ("Silah qardaşları", "Şəfəqdən qalxanlar"...), xırda forma adlanan bədii nəsr silsiləsinin davamıdır. [12]

1984-cü ildə "Ləyaqət" adlı kitab Bakıda "Yazıçı" nəşriyyatında 359 səhifə həcmində nəşr olunub. Səfər Mahmudzadənin redaktorluğu ilə çapdan çıxan kitabın rəssamı Y.Katakalidisdir. Kiril əlifbalı kitabın ağ rəngli, qalın karton cildi üzərində qadın rəsmi var. 14x21 sm. həcmində, 311ədəd sifarişli, 40.000 nüsxə tirajla çap olunub. Kitabda "Ötən günlər" hekayələri, "Həyat hekayələri", "Məktəb hekayələri", "Bizim ailə" hekayələri və "Dağlar dilə gəldi" povesti nəşr olunub.

Görkəmli Azərbaycan nasiri Mir Cəlalın müxtəlif illərdə yazdığı hekayələri və bir povesti daxil edilmişdir. İncə və duzlu yumorla qələmə alınmış hekayələrdə müəllif öz oxucularına ülvi duyğular, müsbət əxlaqi keyfiyyətlər və ləyaqət hissi aşılayır.

"Dağlar dilə gəldi" povesti isə sovet və sovet hakimiyyətinin ilk illərində ucqar dağ kəndlərinin birində işləməyə gedən gənc müəllim qızın həyat və fəaliyyətindən bəhs edir. [13]

2013-cü ildə Mir Cəlalın "Seçilmiş əsərləri" 5 cilddə olan kitabın birinci cildi Bakıda "Adiloğlu" nəşriyyatında çapdan çıxmışdır. Hekayələr, felyetonlar, şeirlər, oçerklər, tərcümələr, xatirələrdən ibarət olan kitabın tərtibi Nərgiz Paşayevaya, Təhsin Mütəllimova aiddir. Kitaba ön sözü "Müasir nəsrimizin hekayə ustadı" başlığı ilə Nərgiz Paşayeva yazmışdır. 442 səhifədən ibarət olan kitabın redaktoru Şəmsəddin Axundovdur. Qalın karton cildli açıq yaşıl rəngli kitabın poliqrafik ölçüsü 18x22 sm. Rəssam Nüsrət Süleymanoğlu kitabda maraqlı rəsmlər çəkib. Çəkilən rəsmlər hekayənin mətninə uyğun yerləşdirlirib. 12 ədəd sifarişli kitab 500 nüsxə tirajla çap olunub.

Birinci cilddəki hekayələr əsas etibarilə ədibin yaradıcılığının ilk mərhələsinə aiddir. 1930-40-cı illərdə yazılmış bu əsərlərdə Mir Cəlalın

istedadlı bir yazıçı və xüsusən təkrarsız hekayə ustadı kimi formalaşmasını izləmək mümkündür. Bu hekayələrdə cəmiyyət həyatındakı ictimai təlatümlər və onların müxtəlif təbəqəli insanların xarakterində, psixologiyasında təzahürü qüvvətli realizm və sərrast, mənalı kinayələr əsasında məharətli bədii təcəssümünü tapmışdır. Özü də bu əsərlərin bir çoxu ideya-estetik cəhətdən ədibin ən təcrübəli vaxtında yazdığı hekayələrdən heç də geri qalmır. Məhz bu hekayələr klassik ənənələri yaradıcı şəkildə davam və inkişaf etdirən yeni bir hekayə ustadının ədəbiyyata gəlişindən xəbər verirdi. [14]

Kitabda "Mirzə", "Həkim", "Kim"in andı, "Mənim parlamentim", "Möhlətovun tərcümeyi-halı" və s. hekayələr nəşr olunub.

Mir Cəlalın "Seçilmiş əsərləri" 5 clddə olan kitabın ikinci cildi də (hekayələr, felyetonlar, şeirlər, oçerklər, tərcümələr, xatirələr) Bakıda "Adiloğlu" nəşriyyatında çapdan çıxmışdır. 444 səhifədən ibarətdir. Kitabın göstəriciləri birinci cild ilə eynidir. Yalnız fərq sifarişin 13 ədəd olmasındadır. Kitabın içərisində 66 hekayə nəşr edilmişdir. Bu hekayələrdən "Arxa əsgəri", " Qardaş qanı", "Silah qardaşları", "Əsgər oğlu" və s. hekayələr çap edilib.

İkinci clddəki hekayələr yazıldığı illərlə əlaqədar olaraq daha çox İkinci Dünya Müharibəsi mövzusuna aiddir. Əsas məqsəd xalqımızın bu ağır sınaq illərindəki əzmkarlığını, vətənpərvərliyini, qəhrəmanlığını səciyyəvi lövhələr, epizodlar və surətlər əsasında canlandırmaq, yada salmaqdır. Həm döyüş meydanlarına, həm də arxa cəbhəyə aid səciyyəvi epizodlar, tipik surətlər və xüsusən dəqiq psixoloji təhlillər əsasında müharibə tariximiz haqqında dolğun təsəvvür yaradılmışdır. Bu əsərlərdə ədibin hekayə yaradıcılığı üçün səciyyəvi olan duzlu-məzəli üslubu xeyli ciddiləşir, orada kədərli, tragik intonasiyalar da nəzərə çarpır. Bu clddə eyni zamanda ədibin ənənəvi mövzularına mənəvi etik problemlərə aid maraqlı, məzəli hekayələri də vardır. [15]

"Seçilmiş əsərlər "in üçüncü cildi isə (göstəriciləri 1-ci ve 2-ci cildlə eynidir) 456 səhifə həcmində və 14 ədəd sifarişlidir. Kitabda 74 hekayə nəşr olunub. Bu hekayələrdən "Sancaq fabrikində", "Anamın qeydləri", "Kəhərin son günləri", "Müdafiə vəkili" və s. hekayələri qeyd etmək olar.

Üçüncü clddəki hekəyələr poetik kamilliyi, cəmiyyət həyatına aid səciyyəvi mövzuları və sərrast lakonizmi ilə diqqəti cəlb edir. Ədibin ilk hekayələrində bədii uğur daha çox şirin və baməzə təhkiyəyə əsaslanırdısa, əllinci illər hekayələrində artıq həyatın səciyyəvi və tipik keyfiyyətlərini, lövhələrini rəssam səliqəsi ilə yaratmaq bacarığı diqqəti cəlb edir. Həmçinin, bu əsərlərdə surətlərin fərdi, canlı mükalimə tərzi və dərin, dəqiq psixoloji təhlilləri diqqəti cəlb edir.

Bu əsərlərdə artıq təcrübəli kamil bir yazıçı və alim Mir Cəlalın həyata, xalqının taleyinə, xüsusən mənəviyyat məsələlərinə olan vətəndaş qayğıkeşliyi, fəlsəfi-etik münasibəti əsasdır. [16]

"Seçilmiş əsərlər"in dördüncü cildi isə 468 səhifə həcmində və 15 ədəd sifarişlidir. Kitabda "Mənim utancaq tələbəm", "Yaratmaq sevinci", "Gülzar haqqında", "Bu xırıltı nədir?" və s. hekayələri nəşr olunub. Bu cilddə cəmi 101 hekayə nəşr olunub.

Dördüncü cilddə ədibin 1960-70-ci illərdəki hekayələrində tənqidi pafos və yumoristik üslub yenidən güclənir, kinayəli intonasiya təhkiyədə aparıcı olur. Lakin daha ciddi ictimai mətləblərdən bəhs olunur, müəllif tendensiyası daha təpərli və əsaslı görünür. Bu əsərlərdə müharibə dövrünə məxsus lirikaya da rast gəlmək mümkündür. Ədibin bütün zəngin hekayəçilik təcrübəsi elə bil ki, son dövr yaradıcılığında bir növ yekunlaşır, komik təsvirlərdə belə didaktik nəticə, fəlsəfi yekun daha aydın və qabarıq görünür. Ədibin zəngin həyat və sənət təcrübəsi bütün əzəməti və vüsəti ilə nəzərə çarpır. [17]

"Seçilmiş əsərlər" in beşinci cildi "Felyetonlar" (hekayələr, felyetonlar, şeirlər, oçerklər, tərcümələr, xatirələr) kitabı 318 səhifədən ibarətdir. 16 ədəd sifariş olan kitabda "Almas gəldi", "Bayrağı bərk saxla", "Azad qız", "Münəvvəri dinləyin" və s. oçerklər dərc olunub.

Beşinci cilddə Mir Cəlalın müxtəlif vaxtlarda yazmış olduğu oçerklər, şeirlər, habelə tərcümələr, xatirələr və felyetonlar daxil edilmişdir. Müşahidə göstərir ki, Mir Cəlalı oçerk janrı o qədər də cəlb etməmişdir. Beləki, onun sonuncu oçerki 1948-ci ilə aiddir. Lakin bu əsərlər Azərbaycan həyatının müxtəlif sahələrinə aid səciyyəvi süjetlər və surətlərlə zəngindir.

Mir Cəlal bədii yaradıcılığa şeirlə başlamışdır. İlk qələm təcrübələri olan "Balaca felyeton" başlıqlı dörd şeiri ədibin həm satirik istedadından, həm də fikri obrazlı ifadə etmək bacarığından xəbər verir. 1926-29-cu illərə aid olan şeirləri ədibin lap ilk yaradıcılıq axtarışlarının yadigarları kimi çox maraqlıdır. Həmçinin ədibin ciddi məzmunlu o biri şeirləri də böyük maraq doğurur.

Bu cilddə Mir Cəlalın türk və özbək ədəbiyyatından tərcümələri də ilk dəfə olaraq "Seçilmiş əsərləri"nə daxil edilmişdir. Mir Cəlal zəngin və çoxillik yaradıcılığında nəsrdə cəmi bir felyeton yazmışdır. "Dardanel" adlı çox uğurlu felyeton da ədibin yaradıcılıq politrasını tamamlamaqdadır. Bakı və Paris müşahidələrinə həsr olunmuş xatirələrdən birincisi Mir Cəlalın gənclik illərinə aid olan son dərəcədə zəngin bioqrafik məlumatlarla zəngindir. [18]

## Ədəbiyyat:

1. Həsənzadə Nəriman. Gülbəsləyən qız // Ədəbiyyat və incəsənət qəzeti.- 1965.- 20 noyabr.
2. Hümmətli Şəlalə. Mir Cəlal müəllim Mirzə Məhəmməd Axundzadə haqqında // Mir Cəlalın 100 illik yubileyinə həsr olunmuş elmi konfransın materialları.- Bakı: Bakı Dövlət Universitetinin nəşriyyatı, 2008. – 400 s.
3. Mir Cəlal. Söyüd kölgəsi. - Bakı: Uşaqgəncnəşr, 1951.-20 s.

4. Mir Cəlal.Sadə hekayələr. - Bakı: Azərnəşr, 1955. - 238 s.
5. Mir Cəlal. Yuxu və külək. - Bakı: Uşaqgəncnəşr, 1956. -11 s.
6. Mir Cəlal. İnsanlıq fəlsəfəsi.-Bakı:Azərnəşr, 1961. - 406 s.
7. Mir Cəlal. Xatirə hekayələri. - Bakı: Uşaqgəncnəşr, 1962.-147 s.
8. Mir Cəlal. Gülbəsləyən qız.- Bakı:Azərnəşr, 1965. -334 s.
9. Mir Cəlal. Söyüd kölgəsində.- Bakı: Maarif, 1965.- 42 s.
10. Mir Cəlal.Şəfəqdən qalxanlar.- Bakı: Gənclik, 1972.- 272 s.
11. Mir Cəlal.Silah qardaşları.- Bakı: Gənclik, 1974.-293 s.
12. Mir Cəlal.Dağlar dilə gəldi.- Bakı: Gənclik, 1978.-176 s.
13. Mir Cəlal. Ləyaqət.- Bakı: Yazıçı, 1984.-360 s.
14. Mir Cəlal. Seçilmiş əsərləri 5 cilddə. C.1. - Bakı: Adiloğlu, 2013. - 442 s.
15. Mir Cəlal. Seçilmiş əsərləri 5 cilddə. C.2. - Bakı: Adiloğlu, 2013. - 444 s.
16. Mir Cəlal. Seçilmiş əsərləri 5 cilddə. C.3. - Bakı: Adiloğlu, 2013. - 456 s.
17. Mir Cəlal. Seçilmiş əsərləri 5 cilddə. C.4. - Bakı: Adiloğlu, 2013. - 468 s.
18. Mir Cəlal. Seçilmiş əsərləri 5 cilddə. C.5. - Bakı: Adiloğlu, 2013. - 318 s.
19. Osmanoğlu Məti.Mir Cəlalın hekayələri və müasirlik // Mir Cəlalın 100 illik yubileyinə həsr olunmuş elmi konfransın materialları.- Bakı: Bakı Dövlət Universitetinin nəşriyyatı, 2008. – 400 s.

## Разнообразие изданий произведений Мир Джалала с 1950-го года по 2015 год

### Резюме

В статье говорится о повестях выдающегося писателя Мир Джалала Пашаева, написанных в 1950-2015-х гг. Речь идет о выдающихся заслугах в развитии жанра коротких повестей в азербайджанской литературе. Здесь также изображаются варианты издания повестей художественного издания с самыми яркими, ведущими, лаконическими и краткими сюжетами, с полной и законченной композицией. Повести Мир Джалала группируются по смыслу и содержанию. Повести делятся на: нравственные, сатирические, патриотические и повести, охватывающие женские проблемы. В повестях литератора жизнь изображается в пестрых красках и с различных аспектов. Повести Мир Джалала раскрывают всю уродливость жизни, свойственную требованиям времени и эпохи. Литератор в своих рассказах раскрывает внутреннюю суть событий,

проникая до самых глубин жизни. В его рассказах пропагандируется идея мира, гуманизма, мирного и счастливого сосуществования людей на земле. Здесь говорится о непрерывной публикации повестей писателя ввиду их актуальности, как в советское время, так и после установления независимости, а также о разнообразии этих публикаций.

**Ключевые слова:** Мир Джалал, рассказы, варианты опубликации

## Diversity of Mir Jalal's published works from 1950 till 2015

**Summary**

The article speaks of novellas of the outstanding writer Mir Jalal Pashayev written in the period of 1950-2015. It states about great merits in the development of short story genre in Azerbaijan literature. It also depicts the variants of publishing novellas of artistic publication with the most impressive, leading, laconic and short plots, as well as full and complete composition. The novellas are divided into moral, satirical, patriotic and those dealing with the problems of women. In the writer’s novellas life is depicted in bright colors and from different aspects. The novellas of Mir Jalal Pashayev reveal ugliness of life peculiar to the calls of the times and periods. In his novellas the author divulges the internal essence of the events fathoming to the very bottom of life. His novellas propagandize the ideas of peace, humanism, peaceful and happy coexistence of people on earth. It also shows the continuous publication of stories written by the author and the diversity of such publications owing to their relevance both in the Soviet times and after the independence.

**Key words:** Mir Calal, stories, printing versions